**Lalə Əbdülrəhim qızı ŞAHBAZOVA**
Lənkəran Dövlət Universitetinin dissertantı,Azərbaycan Respublikası

# DAYANIQLIQ KONTEKSTİNDƏ AZƏRBAYCAN BANK SİSTEMİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**Xülasə**

*Tədqiqatın məqsədi* – müasir dövrdə dayanıqlıq kontekstində Azərbaycan bank sisteminin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir. Bank sisteminin müasir problemləri təhlil olunmuş və açıqlanmışdır. Bankların prioritet fəaliyyət istiqamətlərinin xüsusiyyətləri verilmişdir. Maliyyə bazarlarında baş verən proseslərdən qaynaqlanan təhdidlərə qarşı bankların immunitetinin artırılmasının vacibliyi bildirilmişdir. Qlobal təhlükələr kontekstində Azərbaycanın bank sisteminin səmərəliliyinin artırılması istiqamətləri verilmişdir.

*Tədqiqatın metodu* – əsasən bir sıra elmi metodlardan, ilk növbədə təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, dayanıqlıq meyarları baxımından Azərbaycanın bank sisteminin səmərəliliyinin artırılması problemlərinə dair yazılmış elmi əsərlərə də diqqət yetirilmişdir.

*Tədqiqatın nəticələri* – kimi əsas etibarı ilə hazırkı qlobal transformasiyalar şəraitində bank sisteminin səmərəliliyinin artırılmasında məqalədə ümumiləşdirilmiş elmi-praktiki nəticələrdən istifadə edilməsinin faydalı ola bilməsi götürülür.

**Açar sözlər**: Azərbaycan, dayanıqlıq, bank sistemi, səmərəlilik, bank sisteminin problemləri, bank sisteminin fəaliyyət istiqamətləri, bank sisteminin inkişaf perspektivləri.

**JEL:** G21; Q01; Q56
**UOT**: 336.7: 338.24
**DOI:** https://doi.org/ 10.54414/CFFX5409

**Giriş**

Qeyd edək ki, bank sistemi kommersiya və ixtisaslaşmış banklar, depozit, kredit və hesablaşma əməliyyatlarını reallaşdıran və ümumi pul mexanizmi çərçivəsində fəaliyyət göstərən bank təşkilatları kimi pul bazarı iştirakçılarının məcmusudur. Bank işinin təşəkkülü və inkişaf tarixi göstərir ki, bankların müxtəlif xidmət növləri üzrə ixtisaslaşması ilk öncə Avropada müşahidə edilmişdir ki, bu da əsasən XVI-XVII əsrlərə təsadüf edir. Maliyyə bazarının ən mühüm seqmentləri kimi bank sisteminin gələcək inkişafını stimullaşdıran emissiya bankları, lombardlar, hesablaşma əməliyyatları ilə məşğul olan banklar, ipoteka, depozit və digər ixtisaslaşdırılmış banklar həmin dövrdə yaranmışdır. Həmçinin, beynəlxalq ticarət əlaqələrinin güclənməsi və coğrafi kəşflər zamanı əmtəə bazarının formalaşması, millətlərarası maraqların güclənməsi ilə bank işi geniş çeşiddə maliyyə xidmətləri əldə edir ki, bunsuz beynəlxalq iqtisadi əlaqələrin inkişafı mümkünsüz olur.

Bank ümumilikdə müxtəlif bank əməliyyatlarını reallaşdırmaq üçün müstəsna hüquqlara malik olan kredit təşkilatıdır. İndiki mərhələdə bank sisteminin əsas struktur elementini kommersiya bankları təşkil edir ki, onlar da öz növbəsində milli iqtisadiyyatın inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir. Ölkə iqtisadiyyatında baş verən hər şey bank sisteminin işində öz əksini tapır.

**Müasir dövrdə Azərbaycan bank sisteminin səmərəliliyinin yüksəldilməsi proseslərinin tədqiqi**

Məlumdur ki, bank sistemi ölkənin milli iqtisadi sisteminin sabitliyində və inkişafında önəmli rol oynayır. Ölkədə makroiqtisadi sabitliyə nail olmaq məqsədilə bank sisteminin inkişafı əsas prioritetlərdəndir. Modernləşmə prosesinin paralel olaraq reallaşdırılması da çevik bank sisteminin olmasını zəruri edir [1, s.4]. Bank sisteminə xas olan xüsusiyyətlərə aşağıdakılar daxildir: yalnız ona xas olan xüsusiyyətlərə malikdir; vahid

mexanizmlərdən biri olmaqla fəaliyyət göstərir; daim dəyişən və özünü tənzimləyən sistem kimi çıxış edir; qapalı tipli sistemin xarakterik xüsusiyyətlərinə malikdir; idarə olunan sistem xüsusiyyətlərinə malikdir [2, s.77]. Bank sisteminin strateji məqsədlərinə bunlar aid edilir: bank sisteminin elementlərinin dayanıqlı fəaliyyətinin təmin edilməsi və gücləndirilməsi, habelə bank böhranlarının qarşısının alınması; bank əməliyyatlarının aparılması və bank sisteminin funksiyalarının yerinə yetirilməsi; maliyyə bazarı iştirakçıları və əhali tərəfindən maliyyə özünütəminatının və inamının qorunması [3, s.248].

Bank sisteminin mahiyyətinə iki yanaşmanı ayırd etmək olar: iqtisadi və hüquqi. Öz növbəsində, bu yanaşmalar çərçivəsində milli iqtisadiyyat çərçivəsində bank sisteminin fəaliyyət göstərməsinin məqsədləri müəyyənləşdirilir: 1. Müxtəlif bank xidmətlərinin, o cümlədən sığorta və müştəriyə investisiyaların satışı yolu ilə mənfəətin və bank kapitalının maksimuma çatdırılması. 2. Müxtəlif təsərrüfat subyektləri arasında müxtəlif maliyyə əməliyyatlarına təşkilati dəstəyin göstərilməsi üzrə ictimai öhdəliyin yerinə yetirilməsi. 3. Əhalinin sosial rifahının yüksəlməsinə kömək göstərilməsi [4, s.196]. Bank sisteminin yuxarıda göstərilən məqsədləri əsasında onun funksiyalarını müəyyənləşdirmək olar ki, onların reallaşdırılması da onun bank sektoru daxilindəki rolunu səciyyələndirir: 1. Müxtəlif iqtisadi ehtiyacları ödəmək üçün maliyyə investisiyalaşdırılması məqsədilə biznes ehtiyaclarına və ev təsərrüfatlarına kredit verilməsi. 2. Ev təsərrüfatlarına, təşkilatlara və hökumətə digər maliyyə xidmətlərinin satışı. 3. Bütün təsərrüfat subyektləri arasında nağdsız köçürmələrin, hesablaşmaların və ödənişlərin milli sisteminin işinin təşkilində iştirak. 4. Milli valyutada pul dövriyyəsinin tənzimlənməsi, rasionallaşdırılması və ardıcıl rəqəmsallaşdırılması. 5. Müxtəlif makro və mikroiqtisadi amillərdən, o cümlədən Mərkəzi Bankın məzənnəsindən asılı olaraq valyuta konvertasiyasının aparılması. 6. Pul və maliyyə nəzarətinin reallaşdırılması. 7. Maliyyə bazarında rəqabətin optimal səviyyəsinin saxlanması.

Qarşıya qoyulan məqsədlərin reallaşdırılmasında və sadalanan funksiyaların yerinə yetirilməsində milli iqtisadiyyat daxilində formalaşmış təcrübədən asılı olaraq, dayanıqlı iqtisadi artım kontekstində bank sisteminin rolu müsbət və mənfi ola bilər. Milli iqtisadiyyatın imkanlarının davamlı artımına nail olunmasında bank sisteminin mənfi rolunun olmasının səbəbi daha çox bank sektoru subyektlərinin sosial əhəmiyyətli layihələrin reallaşdırılmasında minimal marağıdır. Ümumən, maliyyə bazarının fundamental elementləri kimi bank sistemi iqtisadiyyatda, ilk öncə, pul vəsaitlərinin hərəkətinin təşkili və idarə edilməsində prioritet yer tutur. Bu, bank sisteminin yerinə yetirdiyi çoxsaylı funksiyalarla bağlıdır ki, bunlara da üç əsas funksiya daxildir: əhalinin, müəssisə və təşkilatların vəsaitlərinin toplanması və kreditlər və investisiyalar şəklində yenidən bölüşdürülməsi; iqtisadiyyatda pula tələb və təklifin tənzimlənməsi; iqtisadiyyatda ödənişlərin uyğunlaşdırılması. Bank maliyyə-kredit münasibətlərinin müasir inkişafı şəraitində maliyyə bazarının mühüm subyektlərindən biri və kredit-maliyyə institutu kimi ölkənin maliyyə təhlükəsizliyinin təminatında önəmli funksiyaları yerinə yetirir.

Məlumdur ki, bank sisteminin əsas funksiyası pul vəsaitlərinin kreditordan borcalana hərəkətini təmin etməkdir. Müxtəlif ölkələrdə olduğu kimi Azərbaycanda da ikipilləli bank sistemi fəaliyyət göstərir ki, hər pillənin də ölkənin maliyyə sistemində rolu önəmlidir. Azərbaycanın Mərkəzi Bankı birinci pillədə qərarlaşıb ki, onun ən önəmli funksiyası pul, kredit və məzənnə siyasətlərini reallaşdırmaqla ölkənin maraqlarının qorunmasına xidmət etməkdir. Dövlətlə maliyyə bazarları arasında vasitəçi kimi çıxış edən Mərkəzi Bank qanunvericiliyə uyğun müxtəlif funksiyaları yerinə yetirir: ölkənin pul və məzənnə siyasətini müəyyənləşdirir və reallaşdırır; pul dövriyyəsi prosesini təşkil edir; pul vahidlərini buraxır və tədavüldən çıxarır; davamlı olaraq manatın rəsmi məzənnəsini müəyyənləşdirir və elan edir; bank əməliyyatlarını lisenziyalaşdırma yolu ilə tənzimləyir; bank və valyuta nəzarətini və onların tənzimlənməsini reallaşdırır; qızıl-valyuta ehtiyatlarının idarəedilməsini reallaşdırır; tədiyyə balansını tərtib etməklə bərabər onun proqnozlaşdırılmasında iştirak edir; ödəniş sistemlərinin fəaliyyətini müəyyənləşdirir, tənzimləyir və bu proseslərə nəzarəti reallaşdırır. İkinci səviyyə müxtəlif növ kommersiya bankla-

rından, o cümlədən bank olmayan kredit təşkilatlarından, lombardlardan, sığorta, investisiya şirkətlərindən ibarətdir. Kommersiya bankları müvəqqəti boş pul vəsaitlərinin və əmanətlərin toplanması, müəssisələrə, təşkilatlara və əhaliyə kredit verilməsindən ibarətən ən önəmli funksiyaları yerinə yetirir. Bu funksiyalara əsaslanaraq demək olar ki, kommersiya banklarının mahiyyətinə mikro və makroiqtisadi baxımdan yanaşılmalıdır. Mikroiqtisadi yanaşmaya əsasən kommersiya bankı başlıca məqsədi mənfəət əldə etmək, özlərinin və müştərilərinin maraqlarını təmin etmək olan maliyyə bazarının ayrıca subyektidir. Bu kontekstdə bank maliyyə təşkilatı kimi qəbul edilir, məqsədi kreditorlar və borcalanlar arasında vasitəçilik xidmətlərinin göstərilməsi prosesində mənfəəti maksimuma çatdırmaq olan qurumdur. Makroiqtisadi yanaşmaya əsasən isə kommersiya bankı ölkənin bank sisteminin tərkib hissəsi və digər kommersiya bankları ilə qarşılıqlı əlaqədə olan bankdır. Əsasən Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş qaydalar və tələblər uyğun fəaliyyətlərini reallaşdırırlar. Kommersiya banklarının ölkənin iqtisadi inkişafında rolu müxtəlif xüsusiyyətlərlə müəyyənləşir: 1. Xarici amillərin təsiri altında daimi transformasiyanın baş verməsi. 2. Yeni bank məhsulları və xidmətlərinin yaranması, bank sektorunun elektronlaşdırılması və rəqəmsallaşdırılması. 3. Rəqabətin güclənməsi və bank xidmətlərinin istehlakçı bazasının genişləndirilməsi. 4. Göstərilən bank xidmətlərinin keyfiyyəti, yanlış məlumatın səviyyəsinin azaldılması. 5. Bütün təsərrüfat subyektlərinin maliyyə resursları ilə təminatı. 6. Öz məqsədləri üçün və vasitəçi kimi hesablaşmaların aparılması. 7. Sərbəst vəsaitlərin iqtisadiyyatın perspektivli sahələrinə investisiya edilməsi [5, s.4].

İnkişaf etmiş bank sisteminin olması bazar münasibətlərinin tərəqqisinin mühüm göstəricisidir və buna görə inkişaf etmiş banklar şəbəkəsi olmayan bazar iqtisadiyyatı səmərəli fəaliyyət göstərə bilməz. İqtisadiyyatın maliyyə sektorunda fundamental mövqe tutan bank sistemi iqtisadi mexanizmin ən mühüm elementlərindən biridir ki, bunsuz dövlətin mütərəqqi inkişafı qeyri-mümkün görünür. Buna görə Azərbaycan Respublikası üçün maliyyə münasibətlərinin inkişafının zəruri şərti kimi bankların səmərəli fəaliyyəti iqtisadi siyasətin prioritet istiqamətinə çevrilir. Bu, onların davamlı inkişafının əsas şərti kimi çıxış edir. Bazar iqtisadiyyatının inkişafı şəraitində, Azərbaycanda da iqtisadi fəaliyyətin strukturunda, ictimai münasibətlərin təkmilləşdirilməsində ciddi dəyişikliklər baş verir. Belə bir şəraitdə milli iqtisadiyyatın ən önəmli hissəsi kimi bank sektorunun inkişafının elmi, nəzəri və praktiki məsələlərinin aydınlaşdırılması vacib hesab edilir. Ona görə bu gün ölkənin müasir iqtisadi siyasətinin əsas problemlərindən biri sənaye münasibətlərinin inkişafı üçün hərəkətverici qüvvə kimi effektiv bank sisteminin formalaşdırılmasıdır. Müasir və səmərəli bank sektorunun formalaşması respublikada iqtisadi islahatların dərinləşdirilməsində əsas rol oynayır. Bu, istər sosial-iqtisadi münasibətlərin əhatə dairəsi baxımından, istərsə də bank institutlarının yeni təşkilati formaların yaradılmasında yeni mərhələnin şərtlərinə uyğunlaşdırılması üçün bank sisteminin rolunun gücləndirilməsi meylinin inkişaf etdirilməsini tələb edir. Dünyanın müxtəlif ölkələrində bank sisteminin praktiki fəaliyyətinin öyrənilməsi intensivləşdirilmiş maliyyə siyasətinin və müasir iqtisadiyyatın aktual problemlərinin inkişafı üçün vacib olan ümumi nəticələr çıxarmağa imkan verir.

Bank sisteminin fəaliyyətində yaranan hər hansı çətinlik bütün bazar iştirakçılarının maraqlarına toxunur, ictimai həyatın sosial-iqtisadi sferalarında sabitliyin pozulmasına gətirib çıxara bilər. Digər tərəfdən, pul vəsaitlərinin hərəkətinin milli iqtisadiyyatın ehtiyaclarına uyğunlaşdırılması, bank sisteminin fəal iştirakı ilə əldə edilən pula tələb və təklifin idarə edilməsi, məcmu tələb və təklif arasında yaranan disbalansları neytrallaşdıra bilər. Bank sistemi milli iqtisadiyyatın inkişafının əsas vasitəçisi kimi iqtisadi inkişaf proseslərinə öz töhfəsini verir, kreditlər verməklə, layihələrin maliyyələşdirilməsinə kömək etməklə makromaliyyə və makroiqtisadi sabitliyi möhkəmləndirir. Bu baxımdan bu proseslərdə istifadə olunan bank-kredit mexanizmlərinin səmərəliliyinin yüksək olması vacib hesab edilir. Aydındır ki, bank sistemində əsas həlqə sistem əhəmiyyətli banklardır. Belə banklar maliyyə bazarı infrastrukturunun gücləndirilməsi üçün böyük təsirə malikdir və səmərəli funksiyaları yerinə yetirirlər. Habelə, sistem əhəmiyyətli banklar əhalidən vəsait cəlb etməklə depozit funksiyasını, maliyyə xidmətləri bazarında fiziki və hüquqi

şəxslərin sabit kreditləşdirilməsini təmin etməklə və çevik fəaliyyət göstərməklə iqtisadiyyatda hesablaşma funksiyasını yerinə yetirir. Bu tip banklar geniş filial şəbəkəsi sayəsində təkcə ölkənin əsas mərkəzlərindən deyil, habelə regionlarda və ucqar rayonlarda zəruri ərazilərdə maliyyə və bank xidmətləri göstərir və bununla da digər önəmli funksiyaları yerinə yetirirlər. Bu amilləri nəzərə alaraq sistem əhəmiyyətli bankların fəaliyyət prinsiplərinin müasir mexanizmlər əsasında təkmilləşdirilməsi və gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi zəruridir [6, s.52]. Azərbaycanın bank sistemində müstəqillik əldə edildikdən bəri islahatlar aparılır, lakin onun inkişafındakı keyfiyyətli nəticələr son dövrlərdə daha aydın gözə çarpır. Azərbaycanın bank sisteminə getdikcə inam artmaqdadır ki, bunu da əhalinin yerli banklara qoyduqları əmanətlərin həcminin müsbət dinamikası əyani şəkildə sübut edir [7, s.118].

**Azərbaycan bank sisteminin səmərəliliyinin artırılması istiqamətləri**

Ölkədə bank sisteminin mütərəqqi inkişafının, əhalinin və təşkilatların ona inamının qorunmasına yönəlmiş tədbirlərin hazırlanması yolu ilə beynəlxalq aləmdə rəqabət qabiliyyətinin artırılması zəruri şərtdir. Bank sektorunun davamlı inkişafına xarici və daxili amillər mane olur. Xarici amillərə daxildir: ölkənin iqtisadi inkişaf səviyyəsi, iqtisadi tsiklin mərhələsi, siyasi risklər; dövlətin maliyyə siyasəti; pul bazarında inflyasiya, valyuta məzənnələrinin və faiz dərəcələrinin dinamikası; maliyyə bazarının inkişaf səviyyəsi, tənzimləyicinin pul siyasətinin istiqaməti; ölkə banklarının kredit resurslarına effektiv tələbi və s. Daxili amillər arasında ayırd etmək olar: borcalanın maliyyə idarəçiliyinin keyfiyyəti, müştərinin təsərrüfat fəaliyyətinin xüsusiyyətləri, sənaye xüsusiyyətləri, o cümlədən kredit təminatının vəziyyəti, bank idarəçiliyinin səviyyəsi, kredit borcunun ödənilməsinin səviyyəsi və s.

Bankların yüksək kredit riskləri, bank sisteminin kapital mövqelərinin kövrəkliyi, bankların kapitallaşma səviyyəsinin aşağı olması, qeyri-işlək aktivlərin satışı, tənzimlənməsi üçün hüquqi mexanizmlərin olmaması və digərləri Azərbaycanın bank sektorunun zəif tərəflərindəndir [9, s.110]. Hazırda əsas prioritet vəzifə ölkədə bank sisteminin davamlı inkişafı və fəaliyyətinin səmərəliliyinin yüksəldilməsidir. Ölkədə bank sisteminin davamlı inkişafı üçün əsas təkliflər irəli sürə bilərik. 1. Bank sisteminin yeni inkişaf strategiyasının hazırlanması. Bu təklifin reallaşdırılması üçün bank sektorunun dayanıqlığının artırılmasına aşağıdakı sahələrdə şərait yaratmaq lazımdır: fiziki və hüquqi şəxslərin qənaətə həvəsləndirilməsi sahəsində; bankların kapitallaşma səviyyəsinin artırılması sahəsində: bank fondlarına ayrılan mənfəətin həcminin artırılması və bank xərclərinin, o cümlədən vergi və inzibati xərclərin azaldılması; Kredit resurslarının maya dəyərinin azaldılması sahəsində: əsas dərəcəsi nəzərə alınmaqla kreditlər üzrə faiz dərəcələrinin aşağı salınması, kreditə tələb və təklifin faiz dərəcəsi ilə tənzimlənməsinə şərait yaradılması; xüsusi ünvanlı kreditlərin, habelə kreditlər üzrə təminat formalarının təklifinin genişləndirilməsi; kredit təşkilatının fəaliyyətinin nəticələrinə bank işçilərinin maddi və mənəvi marağının artırılması sahəsində: kreditləşmənin həcmini, iqtisadiyyatın real sektoruna investisiyanı, bankın əldə etdiyi mənfəəti əlaqələndirən xüsusi əmsalların tətbiq edilməsi; qanunvericiliyin təkmilləşdirilməsi sahəsində: meqatənzimləyicinin inkişafı strategiyasının hazırlanması. 2. Bank sisteminin maliyyə dayanıqlığını möhkəmləndirilməli, bu məqsədlə onun fəaliyyətinə bank nəzarətini reallaşdırmaq lazımdır. Bank nəzarətinin reallaşdırılması öhdəliklərin yerinə yetirilməsi məqsədilə lazımi likvidlik səviyyəsini təmin edir, kredit, əməliyyat, bazar, likvidliyin itirilməsi risklərinin qarşısını almağa imkan verir [10, s.32]. 3. Ölkənin Mərkəzi Bank sisteminin inkişaf strategiyasının hazırlanması və təkmilləşdirilməsi. Bu təklifin reallaşdırılması ölkənin bank sisteminin sabitləşdirilməsi üzrə uzunmüddətli strategiyanın hazırlanmasını və onun iqtisadiyyatın real sektorunun inkişafı üçün investisiya və innovasiya layihələrinin kreditləşdirilməsinə yönəldilməsini tələb edir. Bu, aşağıdakıları əhatə edir: dövlətə məxsus sistem əhəmiyyətli banklar və xüsusi şirkətlər, aktivlərin idarə edilməsi fondları, habelə ev təsərrüfatlarının borcları vasitəsilə korporativ borcların restrukturizasiyası; bank sisteminin restrukturizasiyası; kreditə tələb və təklifin faiz dərəcələri ilə tənzimlənməsinə şərait yaradılması; xüsusi məqsədli kreditlərin, habelə kreditlər üzrə təminat formalarının genişləndirilməsi və s.

Mərkəzi Bank maliyyə bazarlarının əsas tənzimləyicisi kimi çıxış edir və onun iştirakçılarına nəzarət etmək səlahiyyətini reallaşdırır. Mərkəzi Bankın reallaşdırdığı pul siyasəti inflyasiya təzyiqlərini yumşaltmağa yönəlib [11, s.864]. Azərbaycan Mərkəzi Bankının bank nəzarəti və tənzimləmə sahəsində prioritetləri əsasən dörd istiqaməti əhatə edir: 1. Bank sisteminin fəaliyyətinin dayanıqlılğının təmin edilməsi. 2. Kapital və likvidlik tələblərinin Bazel III-ə uyğunlaşdırılması. 3. Bankın daxili nəzarət, korporativ və risk idarəetməsi funksiyalarının gücləndirilməsi. 4. Nəzarət hesabatının təkmilləşdirilməsi, bank sektorunda innovativ texnologiyaların tətbiqi. Mərkəzi Bank beynəlxalq çağırışları və ölkənin davamlı sosial-iqtisadi inkişafı məqsədlərini nəzərə alaraq, iqlim dəyişikliyindən yaranan risklərə qarşı dayanıqlı olmaq və səmərəli fəaliyyət göstərmək məqsədilə "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi"ni təsdiq edib. Bu sənəd cari və gələcək nəsillərin mənafeyi naminə ekoloji, korporativ və sosial məsuliyyət prinsiplərinin, habelə inkişaf davamlılığına nail olmaq məqsədlərinin təcrübi olaraq reallaşdırılmasına əsaslanan konsepsiyadır. Bu konsepsiya müxtəlif əhalinin qruplarının, özünüməşğul əhalinin, sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının artırılması və maliyyələşmə imkanlarının genişləndirilməsi, maliyyə inklüzivliyinin getdikcə dərinləşdirilməsi, mikromaliyyələşmənin inkişafı, rəqəmsal maliyyə xidmətləri sahəsində imkanlarının artırılması və s. kimi müvafiq tədbirlərin görülməsini nəzərdə tutur [12].

**Nəticə**

Beləliklə, bank sisteminin gələcək inkişafının əsas məqsədi aydın formalaşdırılmalı, kəmiyyətcə ölçülə bilən olmalı və iqtisadi inkişaf səviyyəsi iqtisadi artım üçün potensial imkanlar baxımından məqbul olmalıdır. Cari və gələcək makroiqtisadi şəraiti nəzərə alaraq ənənəvi bank xidmətlərinin inkişafına xüsusi diqqət yetirmək lazımdır. Bu istiqamətdə işləyərkən qabaqcıl ölkələrin təcrübəsini mənimsəmək məqsədəuyğundur. Azərbaycanda bank sisteminin dayanıqlığının və səmərəliliyinin yüksəldilməsi istiqamətlərini müəyyənləşdirmək olar:

– Bank sektorunun inkişaf səviyyəsindən asılı olaraq, onun subyektləri üçün vəzifələrin formalaşdırılması.

– Bankların öz resurslarını (həmçinin əmanətçilərinin resurslarını) iqtisadiyyatın perspektivli sektorlarına yatırması məqsədilə maliyyə xidmətləri bazarında rəqabəti artırmaq, bunun üçün rəqəmsal və texniki yeniliklərdən istifadə edilməsi.

– Bank kredit resurslarının iştirakı ilə iqtisadi artımın stimullaşdırılması üçün yeni proqramların hazırlanması.

– Bank sektoru ilə real sektor arasında əlaqəni gücləndirmək üçün açıq-aşkar sənaye ixtisasına malik bankların yaradılmasının stimullaşdırılması.

– Cəlb edilmiş əmanətlərin müddətinin uzadılması və ödənilməsi üzrə mövcud prosedurun tənzimlənməsi və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Mirzəzadə, F.A. Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin təkmilləşməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2018. – 26 s.
2. Велиева, Е.Ф. Особенности развития банковской системы Азербайджанской Республики на современном этапе / Е.Ф. Велиева // Вестник Полоцкого государственного университета. Серия D. Экономические и юридические науки. – 2019. № 6, – с. 77-80.
3. Олимов, У.М. Некоторые теоретические вопросы развития банковской системы / У.М. Олимов // Актуальные вопросы современной экономики. – 2021. № 2, – с. 243-250.
4. Матерова, Е.С. Роль банковского сектора в обеспечении устойчивого роста экономики / Е.С. Матерова, Д.В. Дунаева // Актуальные проблемы науки и образования в условиях современных вызовов: сборник материалов XXI Международной научно-практической конференции, Москва, – 24 мая 2023, – с. 194-198.
5. Синиченко, О.А. Роль банковского сектора в развитии экономики страны / О.А. Синиченко // Вестник Таганрогского института управления и экономики. – 2023. № 4(40), – с. 3-10.

6. Əliyev, V.Ə. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasında sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti. Audit – 2019. № 3, Cild 25, – s.49-58

7. Садыгов Э.М. Основные направления развития банковской системы Азербайджана // Часопис економічних реформ. – 2014. №. 1(13), – с. 118-122.

8. ARDSK: [Elektron resurs] / URL: https://www.stat.gov.az/source/finance/.

9. Джабиева, Т. Проблемы и основные риски банковского сектора Азербайджана / Т. Джабиева // Экономика и управление. – 2021. – Т. 27, № 12, – с. 1003-1012.

10. Allahverdiyeva, A.X. Banklarda problemli kreditlər portfelinin idarə edilməsinin təkmilləşdirilməsi. Audit – 2017. № 4, Cild 18, – s.31-40.

11. Гараева, М.И. Тенденции развития банковского сектора Азербайджана / М.И. Гараева // Экономика и управление. – 2023. – Т. 29, № 7, – с. 859-866.

12. Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-2026-cı illər üzrə Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: [Elektron resurs] / URL: https://uploads.cbar.az/assets/dc1546b51b6aa6b3d92409836.pdf//.

**Лала Абдулрахим кызы ШАХБАЗОВА**

*Диссертант Лянкоранского Государственного Университета,*

*Азербайджанская Республика,*

*г. Ленкорань, улица Г. Асланова, 50.*

*E-mail:* shahbazova1995@gmail.com

## ПУТИ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ БАНКОВСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ УСТОЙЧИВОСТИ

**Резюме**

***Цель исследования*** - заключается в определении путей повышения эффективности банковской системы Азербайджана в условиях стабильности в современную эпоху. Анализируются и объясняются современные проблемы банковской системы. Дана характеристика приоритетных направлений деятельности банков. Констатирована важность повышения иммунитета банков по противостоянию угрозам, вызванных процессами, происходящими на финансовых рынках. В условиях глобальных вызовов даны направления повышения эффективности банковской системы Азербайджана.

***Методы исследования*** - в основном использовался ряд научных методов, в первую очередь, методы анализа, синтеза, сравнения и обобщения. При этом внимание было уделено научным работам, написанным по проблемам повышения эффективности банковской системы Азербайджана по критериям устойчивости.

***Результаты исследования*** - основаны на использовании научных и практических результатов, обобщенных в статье, которые могут быть полезными в повышении эффективности банковской системы в условиях современных глобальных преобразований.

**Ключевые слова:** Азербайджан, стабильность, банковская система, эффективность, проблемы банковской системы, направления развития банковской системы, перспективы развития банковской системы.

**Lala Abdulrahim SHAHBAZOVA**
Doctoral student of Lankaran State University,Azerbaijan Republic

**WAYS TO IMPROVE THE EFFICIENCY OF THE AZERBAIJANI BANKING SYSTEM IN THE CONTEXT OF SUSTAINABILITY**

**Summary**

*The purpose of the research* - consists in identifying ways to increase the efficiency of the banking system of Azerbaijan in conditions of sustainability in the modern era. Contemporary problems of the banking system are analyzed and explained. The characteristics of the priority areas of activity of banks are given. The importance of increasing the immunity of banks against threats caused by processes occurring in financial markets was stated. In the context of global challenges, directions for increasing the efficiency of the banking system of Azerbaijan are given.

*Research methods* - a number of scientific methods were mainly used, primarily methods of analysis, synthesis, comparison and generalization. At the same time, attention was paid to scientific works written on the problems of increasing the efficiency of the banking system of Azerbaijan according to sustainability criteria.

*The results of the research* – are based on the fact that the use of scientific and practical results summarized in the article can be useful in increasing the efficiency of the banking system in the context of modern global transformations.

***Keywords***: Azerbaijan, sustainability, banking system, efficiency, problems of the banking system, directions of the banking system, prospects for the development of the banking system.